**KƏMALƏ HƏSƏNOVA**
*BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının dissertantı*

## AZƏRBAYCAN RESPUBLIKASI ILƏ ATƏT-IN PARLAMENT MƏCLISININ ƏLAQƏLƏRI

Müstəqillik bərpa edildikdən sonra Azərbaycan parlamentinin beynəlxalq əməkdaşlıq sahəsində fəaliyyəti xeyli zəngin və məqsədyönlü olmuşdu. Beynəlxalq və məhəlli inteqrasiya proseslərinə qoşulan gənc dövlətlər müxtəlif forma və vasitələrdən istifadə edərək özlərinin xarici siyasət fəaliyyətlərində,beynəlxalq təşkilatlarla onların tərkib hissəsi olan beynəlxalq parlament təşkilatlarına diqqət yetirdilər.

Azərbaycan parlamenti müstəqillik qazanıldıqdan sonra beynəlxalq həyat sahəsində əsasən aşağıdakı istiqamətlərdə fəaliyyət göstərmişdir: beynəlxalq parlament təşkilatları ilə əlaqələr; ikitərəfli parlamentlərarası əlaqələr;Milli Məclisin beynəlxalq sənədləri təsdiq etməsi və onlara qoşulmaqla bağlı görülən işlərdə iştirak, parlamentə gələn qonaqların qəbul edilməsi və onlarla aparılan iş xüsusi yer tutmuşdur. Milli Məclisin beynəlxalq parlament təşkilatları ilə əlaqələrinin təhlili həm yaxın tarix, həm də müasir siyasət baxımından aktualdır. Azərbaycan Respublikası beynəlxalq parlament təşkilatları ilə əməkdaşlığı əsasən iki ümumi istiqamətdə həyata keçirmişdir.Birincisi, Azərbaycan Respublikası yeni beynəlxalq təşkilatların yaradılmasında iştirak etmişdir.İkincisi, beynəlxalq parlament təşkilatlarına üzv olaraq onlarla səmərəli işgüzar əməkdaşlıq etmişdir.

Dövlətimiz, beynəlxalq parlament təşkilatları ilə əlaqələrin qurulmasına təkcə məqsəd deyil, eyni zamanda suverenliyi, müstəqilliyi tanıtmaqda, möhkəmləndirməkdə, mövcud şəraitdə informasiya blokadasını qırmaqda, öz sözünü deməkdə vasitə kimi baxmışdır.

Azərbaycan Respublikasının beynəlxalq parlament təşkilatları ilə əlaqələrinin istiqamətləri müxtəlif formalarda həyata keçirilmişdir. Bu əlaqələrin içərisində sessiyalarda iştirak və çıxış etmək, konfranslara qətnamə layihələri təqdim etmək, müzakirə edilən məsələlər barəsində qətnamələr üzərində iş və onlara təkliflər vermək, beynəlxalq təşkilatların ölkəmizdə keçirilən tədbirlərinin təşkili, nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, qarşılıqlı yazışmalar və b. diqqəti cəlb edir.

Əvvəlcə Azərbaycan parlamentinin qurucularından biri olduğu beynəlxalq parlament təşkilatları ilə əlaqələrə diqqət yetirək. Belə təşkilatlardan biri ATƏT-in Parlament Məclisi oldu.

Azərbaycan Respublikası 1992-ci ildə ATƏM-in Parlament Məclisinin yaradılmasında iştirak etdi. 1992-ci il yanvarın 20-də Azərbaycan Respublikası ATƏT-in (1994-cü ildən Avropada Təhlükəsizlik və Əməkdaşlıq Müşavirəsi) üzvü oldu və iyulun 10-da onun sənədini imzaladı(10, s. 86). Təşkilatın nizamnaməsi və digər sənədlər ölkəmizə göndərildi. Həmin sənədlər parlamentin beynəlxalq əlaqələr şöbəsində dərindən öyrənilib təkliflər hazırlandı.

İlk öncə qeyd etmək lazımdır ki, Azərbaycan Parlamenti ATƏM-in Parlament Assambleyasına 1992-ci ildə təşkilatın Budapeşt sessiyasında daxil olmuşdur (3, s. 188). Azərbaycan nümayəndə heyətinin üzvü çıxış edərək ATƏM-in parlament Məclisinin yaradılmasının əhəmiyyətindən danışdı və təşkilatın gələcək fəaliyyəti haqqında təkliflərini irəli sürdü.Hazırlanmış bəyanatda Ermənistanın hərbi təcavüzü açıqlanırdı və onun əsl mahiyyəti göstərilirdi. Parlament Məclisinin Plenar iclasında nümayəndə he-

yəti Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsinin səbəbləri və mahiyyəti ilə Parlament Məclisinin üzvlərini tanış etdi.

Azərbaycan nümayəndə heyəti ikitərəfli parlament əlaqələrini qurmaq üçün bir sıra görüşlər keçirdi. Nümayəndə heyəti ABŞ, Böyük Britaniya, Almaniya, Kanada, İspaniya və Fransa parlamentlərinin nümayəndə heyətləri ilə görüşlər keçirdi. Görüş zamanı ikitərəfli əlaqələrin qurulmasını və inkişaf perspektivlərini müzakirə etdi.

Hazırki dövrdə ATƏT-in Azərbaycan üçün ən əhəmiyyətli və vacib strukturu 1992-ci ilin martında yaradılmış Minsk qrupudur (7, s. 226). Minsk qrupunun əsas vəzifəsi Ermənistan-Azərbaycan konfliktini nizama salmaq və Dağlıq Qarabağ problemini dinc vasitələrlə həll etmək üçün müvafiq sənəd hazırlamaq və xüsusi Minsk konfransı çağırmaqla bu konflikti birdəfəlik aradan qaldırmaqdır. Qrupun tərkibinə 11 dövlət – Almaniya, ABŞ, Fransa, İtaliya, İsveç, Çexiya, Türkiyə, Belarus, Rusiya, Azərbaycan və Ermənistan daxildir. Onun həmsədrlik funksiyası 1994-cü ilin dekabrından iki dövlətin Rusiya və Finlandiyanın, 1997-ci ildən isə üç - Rusiya, ABŞ və Fransanın nümayəndəsi tərəfindən həyata keçirilir. ATƏT-in Minsk Konfransının da müvafiq həmsədrləri mövcuddur.

Azərbaycan nümayəndə heyəti, həmçinin ATƏT-in Parlament Məclisinin 1993-cü ilin yanvarında Kopenhagendə keçirilmiş müzakirələrində də iştirak etdi (9, s. 25). Müşavirədə Azərbaycan nümayəndələri Ermənistanın Azərbaycana qarşı apardığı işğalçılıq müharibəsi barədə xüsusi bəyanatı, Azərbaycan Respublikası Milli Məclisinin ABŞ senatına müraciətini yaydılar.Eyni zamanda İngiltərə, Almaniya, ABŞ, İtaliya, Avropa parlamenti, Şimali Atlantika Parlament İttifaqı və NATO-nun nümayəndələri ilə görüşlər keçirdilər.Parlament Məclisi ilə əlaqələr həmin ildə yazışma səviyyəsindən irəli getmədi.Bununla belə, 1993-cü il iyulun 9-da ATƏM-in Parlament Məclisinin Helsinki bəyannaməsi qəbul edildi. Üzv dövlətlər arasında əməkdaşlığı möhkəmləndirmək və müxtəlif ölkələrdə mövcud olan qaçqınlara və məcburi köçkünlərə yardım göstərilməsi zəruriliyi bəyannamədə irəli sürüldü (7, s. 54). 1993-cü il oktyabrın 25-də ATƏT-in o zamankı sədri Marqaret af Uqlas Azərbaycana səfər etmiş, Prezident Heydər Əliyevlə görüşmüşdür (11, s. 104). Onun səfəri Azərbaycana qarşı Ermənistan təcavüzkarlığının genişlənməsi ilə eyni vaxta təsadüf edirdi.Respublika rəhbərlərinin ciddi tələbi ilə o, hərbi əməliyyatların genişlənməsinin yolverilməzliyi barədə dərhal Ermənistan hökumətinə bəyanat verdi. Daha sonra 1993-cü ilin noyabrında ATƏT-in Minsk qrupunun üzvləri Almaniya, ABŞ, Belarus, Fransa, İtaliya, Rusiya, İsvez, Çexiya və Türkiyə bu məsələ ilə bağlı, o cümlədən Dağlıq Qarabağ probleminin həlli haqqında bəyanat verdilər. Bu bəyanatlarda döyüş əməliyyatları və yeni ərazilərin ələ keçirilməsi pislənir. 1993-cü il dekabrın əvvəlində Azərbaycanın xarici işlər naziri ATƏM-in Nazirlər Şurasının Romada keçirilən iclasında Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü və onun nəticələrini məruzə etdi. 1994-cü ildə, xüsusən may ayında atəşkəs əldə olunduqdan sonra, ATƏT-in Budapeşt sammitinin yaxınlaşması ilə əlaqədar Azərbaycan diplomatiyası öz fəallığını daha da artırdı. Beləki 1994-cü ilin iyulunda Moskvada Azərbaycan və Ermənistan prezidentlərinin görüşü keçirildi və atəşkəsin qorunub saxlanılması haqqında razılıq əldə olundu.

Azərbaycan parlamenti 1994-cü ildə ATƏM-in Parlament Məclisi ilə əlaqələrini yenidən davam etdirdi. ATƏM-in Parlament Məclisinin Daimi Komitəsinin 1994-cü il yanvarın 7-12-də keçirilən iclasında iştirak etmək Azərbaycan parlamentinin çoxtərəfli beynəlxalq əlaqələrində mühüm rol oynadı. Daimi komitə iclasında təşkilatın qarşısında duran vəzifələr, üzv ölkələrdə və ümumiyyətlə Avropada mövcud olan problemlərin həlli yolları, qarşıdan gələn növbəti illik sessiya ilə bağlı məsələlər müzakirə edildi.

1994-cü il iyulun 4-dən 8-dək Avstriyanın paytaxtı Vyana şəhərində Azərbaycan nümayəndə heyəti ATƏM-in Parlamentlərarası Assambleyasının 3-cü illik sessiyasının işində iştirak etmişdir. Sessiyanın plenar iclasında ATƏM-in Parlament Məclisinin prezidenti İlki Suominen, Avstriyanın kansleri Frans Vranitski ATƏM-in Xarici İşlər Nazirləri Şurasının sədri və İtaliyanın xarici işlər naziri Antonio Martino çıxış etdilər. Həmin sessiyada çıxış edən AFR Bundestaqının prezienti xanım Rita Züsmut ATƏT-in beynəlxalq konfliktlərin həllində müəyyən təcrübə qazandığını qeyd edərək göstərdi ki, regionda sabitliyin bərpası üçün bu beynəlxalq qurumun real imkanlarından daha geniş istifadə olunmalıdır. İştirakçı dövlətlərin nümayəndələri bunu da xüsusilə vurğulamışlar ki, ATƏT bir siyasi qurum kimi yeniləşməli, öz funksiyalarını təkmilləşdirməli və səlahiyyətlərini genişləndirməlidir.

O dövrdə ATƏT-in Minsk qrupunun rəhbəri Yan Eliasonun Dağlıq Qarabağ konfliktinin sülh yolu ilə tənzimlənməsi prosesində tərəqqinin əldə olunmasından bəhs edərkən ilk dəfə olaraq "Azərbaycanın işğal olunmuş torpaqları" ifadəsini işlətmişdir.

Sessiyadakı diplomatların etiraf etdiyi kimi, danışıqlarda Azərbaycan tərəfi milli mənafelərimizə uyğun gələn məqsədlərə nail olmuş, ATƏM-in üzv dövlətlərinin hər birinə ölkəmiz haqqında əsl həqiqəti çatdıra bilmişdir (1, s. 78).

İyulun 8-də ATƏM-in Parlament Məclisinin yekun iclası keçirildi. ATƏM-in Parlamentlərarası Assambleyasının sessiyası "Vyana bəyannaməsi" adlanan sənəd qəbul etdi. Sənəddə qeyd olunur ki, Dağlıq Qarabağ ətrafında gedən münaqişədə minlərlə insan zərər çəkmiş, bir milyondan çox qaçqın ordusu yaranmışdır (4, s. 14).

Avstriya nümayəndəsi Piter Şiderin məruzəsində öz müqəddəratını təyin etmə, qaçqınlar və məcburi köçkünlər, öz əksini tapdı. Qaçqınlara humanitar yardımlar göstərilməsi və daimi yaşayış yerlərinə qaytarılması zəruriliyi göstərilirdi.

1994-cü il dekabr ayında keçirilmiş Budapeşt sammiti ATƏM-in tarixində mühüm bir dövrün başlanğıcı oldu. Budapeşt zirvə toplantısına qədər əsas vəzifəsi Avropada təhlükəsizlik və əməkdaşlıq məsələləri üzrə məsləhətləşmələr aparmaq olan ATƏM, 1994-cü il dekabrın 6-dan başlayaraq yeni Avropanın sivilizasiyalı birgəyaşayış qaydalarını müəyyən edən, sülhün, demokratiyanın və insan hüquqlarının qorunmasını təmin edən, regionun təhlükəsizlik və qarşılıqlı faydalı əməkdaşlıq prinsiplərini həyata keçirən bir təşkilata – özünüidarə mexanizmləri olan ümumavropa institutuna çevrildi(8, s. 454-455). Təşkilat 1995-ci il yanvar ayının 1-dən Avropada Təhlükəsizlik və əməkdaşlıq adlandırıldı.

Budapeşt sammitində ilk dəfə olaraq, Dağlıq Qarabağ problemi xüsusi bir məsələ kimi gündəliyə salındı və müzakirə olundu. Dağlıq Qarabağ problemi ətrafında müzakirələrdə dünyanın aparıcı dövlət başçıları və siyasi xadimləri B.Klinton, B.B.Qali, T.Çiller və b. çıxış edərək münaqişənin həlli sahəsində ATƏT-in mühüm rolunu vurğuladılar. Nəhayət qeyd etmək lazımdır ki, Budapeştdə Dağlıq Qarabağ ətrafında baş verən münaqişənin dayandırılması, atəşkəs rejiminin qorunması, münaqişənin həlli yollarının axtarılması onun sülh yolu ilə aradan qaldırılması və Böyük Sülh Sazişinin hazırlanması ilə bağlı bütün vəzifələr ATƏT-in Minsk qrupuna və ona həmsədrlik edən Rusiya və Finlandiyaya tapşırılmışdır.

1995-ci il yanvarın 12-13-də Vyanada keçirilən ATƏT-in Parlament Məclisi və Daimi Komitənin iclasında Milli Məclisin nümayəndə heyəti iştirak etmişdir. İclasda ATƏT sədrinin şəxsi nümayəndəsi İstvan Uparmati, təşkilatın baş katibi Vilhelm Höynk və b. çıxış edərək görülən işlərə yekun vurdular. Azərbaycan parlamenti nümayəndə heyətinin üzvləri çıxışlarında Ermənistan-Azərbaycan münaqişəsi barədə məlumat verərək Almaniya, Türkiyə, Böyük Britaniya, Rumıniya, Norveç, Litva, Qırğızıs-

tan və Türkmənistan tərəfindən imzalanmış "ATƏT-in Minsk qrupunun fəaliyyətinə görə hesabat"ın Ottavada (Kanada) keçiriləcək illik sessiyasının gündəliyinə daxil edilməsi təklifini irəli sürdülər. Azərbaycan nümayəndə heyəti ATƏT-in baş katibi Spenser Oliverlə, AFR Bundestaqının sədri Rita Züsmutla görüşərək çoxtərəfli əməkdaşlıq məsələlərini müzakirə etdi. ATƏT-in Parlament Məclisinin prezidenti cənab Frank Svalenin dəvətilə Azərbaycan Respublikası parlamenti sədrinin başçılığı ilə parlament nümayəndə heyəti təşkilatın 1995-ci il iyulun 4-8-də Ottavada keçirilən dördüncü illik sessiyasının işində iştirak etdi (2, s. 58).

Sessiyanın işində 53 ölkənin parlament nümayəndə heyəti, o cümlədən Almaniya, Kanada, Norveç, Belçika, İsveçrə, Bolqarıstan, Özbəkistan və digər ölkələrin parlament sədrləri iştirak etdilər. Azərbaycan parlamentinin nümayəndələri qərbi Avropa İttifaqının Parlament Məclisinin sədri Smit Dadli və Şimali Atlantika Parlament Assambleyasının Baş katibinin müavini Simon Lannla görüşüb ölkə rəhbərlərinin yeritdiyi xarici siyasəti, xüsusən Ermənistan tərəfindən Azərbaycanın Dağlıq Qarabağ regionunun işğal edilməsi barədə onlara məlumat verdilər.

Azərbaycan parlamentinin nümayəndə heyəti ATƏT-in fəaliyyətinə həsr olunmuş brifinqdə iştirak etdi. ATƏT-in baş katibi V.Höynk, Kanadanın xarici işlər naziri A.Ule və ATƏT sədrinin xüsusi nümayəndəsi S.Dyarmati brifinqdə çıxış etdilər. S.Dyarmati Azərbaycan Respublikasının Dağlıq Qarabağ regionunun ətrafında münaqişənin nizama salınması ilə bağlı Minsk qrupu çərçivəsində aparılan danışıqların tərəflər arasında siyasi sazişin bağlanması istiqamətində müəyyən addımlar atıldığını, lakin burada həll olunmamış çoxlu problemlərin qaldığını bildirdi.

Azərbaycan parlamentinin nümayəndə heyəti ATƏT-in Parlament Məclisinin Daimi Komitəsinin iclasında iştirak etdi. İclasda Məclisin gündəliyi nəzərdən keçirildi.

İclasdan sonra Milli Məclisin nümayəndə heyəti ATƏT-in Parlament Məclisinin prezidenti və eyni zamanda Belçika parlamentinin sədri F.Slavenlə, Albaniya parlamentinin sədri P.Arbnori və Bolqarıstan parlamentinin sədri B.Sendovla görüşlər keçirdilər və parlamentlərarası əlaqələrin inkişafı barədə geniş fikir mübadiləsi etdilər.

İyulun 5-də ATƏT-in Parlament Məclisinin təntənəli açılış mərasimi oldu.Bu tədbirdə Kanadanın baş naziri J.Kretyen, ölkə Parlamentinin İcmalar Palatasının sədri J.Paran, Senatın sədri C.Molqat, ATƏT-in sədri L.Kovaç çıxış etdilər. L.Kovaç məruzəsində ATƏT-in Dağlıq Qarabağ münaqişəsinin dinc yolla nizama salınmasında təşkilatın gördüyü işlərdən bəhs etdi. O bildirdi ki, bu sahədə iş əsasən iki istiqamətdə qurulub: tərəflər arasında siyasi sazişin bağlanmasına nail olmaq və münaqişə zonasına ATƏT-in sülhpərvər qüvvələrini göndərilməsini təşkil etmək. İkinci məsələdə ATƏT-in müəyyən çətinliklərlə qarşılaşdıqları qeyd edildi.

Azərbaycan parlamentinin sədri Norveç Stortinqinin parlamentin sədri K. Qründalla və Almaniya Bundestaqının sədri R.Züssmutla görüşlər keçirmişdir.Görüş zamanı parlamentlərimiz və ölkələrimiz arasında əməkdaşlıq barəsində fikir mübadiləsi oldu. Nümayəndə heyəti Azərbaycan Respublikası Milli Məclisinə noyabrın 12-nə keçirilən seçkilərə Norveç və Almaniyadan müşahidəçilərin göndərilməsini təklif etdi. Bu təklif ATƏT-in Parlament Məclisi tərəfindən qəbul olundu.

Kanada parlamentinin İcmalar palatasının sədri J.Paran və senatın sədri Q.Molqat iyulun 6-da Azərbaycan nümayəndə heyəti ilə görüşdülər. Görüş zamanı iki ölkə arasında çoxtərəfli əlaqələrin inkişaf etdirilməsinin zəruriliyi vurğulandı və parlament əməkdaşlığının bir sıra aktual məsələlərinə toxunuldu. Kanada parlamentinin rəhbərlərinə Ermənistanın Azərbaycana qarşı təcavüzü haqqında ətraflı məlumat verildi.

Azərbaycan parlamenti nümayəndə heyətinin üzvləri Məclisin 3 komitəsinin – siyasi və təhlükəsizlik məsələləri: iqtisadi, eim, texnologiya və ətraf mühitin qorunması məsələləri: demokratiya, insan hüquqları və humanitar məsələlər komitəsinin iclaslarında iştirak etdilər. Komitə iclaslarında çıxış edərək, qətnamə layihələrinə Azərbaycanın təklif etdiyi düzəlişləri və əlavələri müdafiə etdilər.

Azərbaycan nümayəndə heyəti ATƏT-in Baş katibi B.Hoynkla, ATƏT-in Parlament Məclisinin vitse prezidenti V.Vimmerlə, ATƏT-in Parlament Məclisinin siyasi və təhlükəsizlik məsələləri komitəsinin sədri X.Rupereslə, ABŞ-ın ATƏT-in Parlament Məclisindəki nümayəndə heyətinin rəhbəri S.Xoyer və keçirilən görüşlərdə Azərbaycanın daxili vəziyyəti və xarici siyasəti barədə ətraflı məlumat verildi.

ATƏT-in Parlament Məclisinin iyulun 8-də yekun iclası keçirildi. ATƏT-in Parlament Məclisinin Ottava bəyannaməsi qəbul edildi. Azərbaycan nümayəndə heyətinin fəaliyyəti Almaniya və Finlandiyanın nümayəndələri tərəfindən dəstəklənməsi nəticəsində Bəyannamənin mətninə Dağlıq Qarabağ münaqişəsinin həll olunması ilə bağlı 13 bənddən ibarət xüsusi bölüm daxil edildi. Bu bölümdə Azərbaycanın tutduğu mövqe müdafiə edilirdi. ATƏT-in Parlament Məclisi Dağlıq Qarabağda sülh prosesini və BMT Təhlükəsizlik Şurasının qətnamələrini, xüsusən sülhü qorumaq üzrə ATƏT-in çoxmillətli qüvvələrinin yaradılmasını suverinliyə və ərazi bütövlüyünə dəqiq mandatı, münaqişənin siyasi nizama salınması ilə xarici orduların müvafiq qaydada çıxarılmasını müdafiə edir. Sülhməramlı missiya işə başladıqdan sonra humanitar yardımla bağlı regiona göndərilən xərclər azaldılmalı idi. Sənəddə münaqişə edən tərəflər arasında hərbi əsirlərin azad edilməsi alqışlanırdı. Bu sənəddə sülhməramlı missiyanın başlıca vəzifəsinin təkcə prosesin sabitləşdirilməsi deyil, eyni zamanda mövcud ixtilafların tədricən aradan qaldırılması və bütün regionun həyatının bərpa edilməsi kimi müəyyənləşirdi. Ən başlıcası Parlament Məclisinin sənədlərində Ermənistanın təcavüzkarlığına son qoyulmasının, işğal olunmuş torpaqların azad edilməsinin, qaçqınların öz doğma yurdlarına qayıtmalarının zəruriliyi göstərilirdi.

ATƏT-in Parlament Assambleyasının Stokholmda(İsveç)keçirilən beşinci illik sessiyasında Azərbaycan nümayəndə heyəti iştirak etdi (3, s. 189). Nümayəndə heyətimiz Azərbaycanın Dağlıq Qarabağ bölgəsi ətrafında münaqişənin nizamlanması ilə bağlı təkliflər irəli sürmüşdür. Bu təkliflər Parlament Assambleyasının "Stokholm Bəyannaməsi"ndə öz əksini tapmışdır.

1996-cı ilin noyabrın əvvəllərində Parlament Assambleyasının prezidenti Xavyer Rupers başda olmaqla nümayəndə heyəti Azərbaycan Respublikasında oldu. Nümayəndə heyəti Azərbaycan prezidenti H.Əliyevlə, Milli Məclisin sədri və b.rəsmi şəxslərlə görüşdülər. X.Rupers Milli Məclisdə mətbuat konfransı keçirdi. O, mətbuat konfransında Azərbaycanın ATƏT-in Parlament Məclisi ilə qarşılıqlı əlaqələrini, təşkilatın regiondakı sülhməramlı niyyətlərini işıqlandırdı və əməkdaşlığın perspektivlərini açıqladı. 1996-cı il dekabr ayının 2-3-də Lissabonda ATƏT-in dövlət və hökumət başçılarının zirvə toplantısı keçirildi. Lissabonda digər məsələlərlə yanaşı ilk dəfə olaraq Qafqazda gedən proseslər,o cümlədən Ermənistan Azərbaycan münaqişəsinin həlli yolları dünyanın aparıcı ölkələri tərəfindən geniş müzakirə edildi. Zirvə toplantısından əvvəl tərəflərin mövqeləri arasında ziddiyyətlərin qalması Lissabonda Azərbaycan və Ermənistanın ikitərəfli danışıqlarının uğursuzluqla qurtarmasına səbəb olmuşdur. Azərbaycanın təklifi Ermənistandan başqa ATƏT-in Minsk qrupunun bütün üzvləri tərəfindən müdafiə olundu. Ermənistan Azərbaycan münaqişəsi ilə bağlı qətnamə müzakirəyə çıxarılarkən əsas mübarizə sənədin 20-ci maddəsi uğrunda oldu. Azərbaycan nümayəndə heyətinin səyləri və təkidi Lissabon sənədinə 20-ci maddə adı altında həmin prinsipləri əks etdirən

bir maddə daxil edilmişdir. Lakin Ermənistan tərəfi konsensus qaydasından istifadə edərək yekun qətnamənin 20-ci maddəsinə veto qoydu.Azərbaycan tərəfi buna cavab olaraq sammitin sənədlərinə imza almayaraq veto hüququndan istifadə etdi.Nəticədə Lissabon sammitinin yekun bəyannaməsinin 20-ci maddəsi Azərbaycanın təklif etdiyi prinsiplər olmadan qəbul edildi.Bunun əvəzində ATƏT sədri Flavio Kotti Ermənistan Azərbaycan münaqişəsinin həllinə dair 3 əsas prinsip göstərirdi: 1) Azərbaycan və Ermənistanın ərazi bütövlüyü; 2) Azərbaycanın tərkibində Dağlıq Qarabağın öz müqəddəratını təyin etməyə əsaslanan ən yüksək hüquqi statusu; 3) Dağlıq Qarabağın bütün əhalisinin təhlükəsizliyi.Verilən bu bəyanat Ermənistandan başqa bütün digər iştirakçı dövlətlər tərəfindən qəbul edildi (5, 8 yanvar 1997).

1997-ci il iyulun 5-8-də Varşavada ATƏT-in altıncı illik sessiyası keçirildi.Milli Məclisin komissiya sədri S.Səfərov başda olmaqla nümayəndə heyəti sessiyada iştirak etdi. Sessiya iclasları üç komitədə-siyasi məsələlər və təhlükəsizlik; iqtisadi məsələlər, texnologiya, elm və ətraf mühitin mühafizəsi; insan hüquqları və humanitar məsələlər ümumi komitələrdə keçirildi.Nümayəndə heyətinin başçısı Azərbaycanın iqtisadi təhlükəsizliyi barədə məruzə etdi. Məruzədə Ermənistanın təcavüzünün Azərbaycanın iqtisadi təhlükəsizliyi üçün törətdiyi qorxudan danışılırdı. ATƏT-in Parlament Məclisinin 1998-ci il iyulun 5-8-də Kopenhagendə yeddinci illik sessiyası keçirildi. Üzv ölkələrin nümayəndə heyətləri ATƏT-in institutlarının inkişafı, perspektivləri, iqtisadiyyat, elm, texnika, ətraf mühitin mühafizəsi, demokratiya və insan hüquqları məsələlərini müzakirə etdilər. Keçirilən müzakirələr nəticəsində ATƏT-in Parlament Məclisinin Kopenhagen bəyannaməsi qəbul olundu.

Təhlil göstərir ki, ATƏT-in Parlament Məclisinin işində Azərbaycan Respublikası Milli Məclisinin iştirak etməsinin mühüm əhəmiyyəti vardır. ATƏT-in Parlament Məclisinin işində iştirak etmək Azərbaycan Respublikasının dövlət müstəqilliyinin tanınması,qorunması,ümumavropa problemlərinin həllinə onun cəlb edilməsi və inteqrasiya proseslərinə qoşulması deməkdir. ATƏT-in Parlament Məclisi ilə əməkdaşlıq Azərbaycan Respublikasının dövlət müstəqilliyinin və suverenliyinin möhkəmləndirilməsinə kömək etdi. Azərbaycanın ərazi bütövlüyünü və sərhədlərinin toxunulmazlığını parlament Məclisi qəbul etdiyi sənədlərdə bir daha təsdiq etdi. ATƏT-in Parlament Məclisi ilə qarşılıqlı münasibətlərin yaradılması Azərbaycanın demokratiya və azad bazar iqtisadiyyatı yolu ilə inkişafında yardımçı rolunu oynayır. Azərbaycan parlamenti ilə ATƏT nümayəndələri arasında bir sıra qarşılıqlı rəsmi səfərlər və görüşlər keçirilmişdir. 1999-cu il noyabrın 18-19-da İstanbulda ATƏT-in zirvə toplantısı keçirilir. Görüşdə yenidən Ermənistan - Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair məsələ müzakirə olunur. ATƏT ölkələrinin dövlət və hökumət başçılarının XXI əsrin astanasında yüksək səviyyəli görüşdə gələcəyin əməkdaşlıq prinsipləri və təhlükəsizlik təminatı problemlərin gündəmə gətirilməsi toplantının siyasi və hüquqi əhəmiyyətini dünya, Avropa və o cümlədən, Azərbaycan üçün əhəmiyyət kəsb edirdi (4, s. 21-31). Bu görüş ATƏT və Azərbaycan arasında münasibətlərin dinamikliyinə və intensivliyinə təsir göstərmək, ölkəmizin ATƏT mexanizmində daha fəal iştirak etmək baxımından da önəmli sayılmalıdır. Azərbaycan üçün önəmli olan gündəliyə salınan məsələlərdən biri də adi silahların Avropada məhdudlaşdırılması ilə bağlı olan məsələ idi. İstanbul zirvə toplantısının Ermənistan- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə yönəlmiş ATƏT Azərbaycan münasibətlərinin inkişafı baxımından müəyyən önəm kəsb edən sənəd yüksək səviyyədə İstanbul görüşünün bəyannaməsi oldu. Bu bəyannamədə ATƏT-in fəaliyyət çərçivəsinə daxil olan ümumavropa problemlərinə, regional gərginlik mənbələrinə münasibət və mövqe göstərilir. 1999-cu ilin sentyabr ayında Azərbaycan Res-

publikası Milli Məclisinin sədri Murtuz Ələsgərovun rəhbərlik etdiyi nümayəndə heyəti Avstriyanın paytaxtı Vyanada olmuşdur və ATƏT-in binasında təşkilatın Baş katibi Yan Kubis ilə görüşmüşdür. 1999-cu il sentyabrın 17-18-də ATƏT-in fəaliyyətdə olan sədri,Norveçin xarici işlər naziri Knut Vollebek, 2000-ci il mayın 31-dən iyunun 2-dək ATƏT-in Parlament Assambleyasının sədri xanım Helle Dayn, 2000-ci il iyulun 17-18-də ATƏT-in fəaliyyətdə olan sədri xanım Benita-Mariya Ferrero-Valdner, 2001-ci ilin oktyabr ayında ATƏT-in Parlament Assambleyasının sədri cənab Adrian Senerin, 2002-ci ilin noyabr ayında Assambleyasının təşkilata üzv olan bir sıra ölkələrin nümayəndələrindən ibarət geniş tərkibli nümayəndə heyəti Azərbaycan Respublikasında səfərdə olmuş, cənab Murtuz Ələsgərov və Milli Məclisin deputatları ilə görüşlər keçirmişdir. Bununla yanaşı ATƏT-in Demokratik Təsisatlar və İnsan hüquqları Bürosu tərəfindən Azərbaycan Respublikasında bir sıra mühüm seminar və konfranslar keçirilmişdir.

2002-ci ildə İsveçli deputat Qoran Lenmarker ATƏT-in Parlament Assambleyasının sədrinin Dağlıq Qarabağ münaqişəsi üzrə xüsusi nümayəndəsi təyin edimişdir. Q.Lenmarker regiona ilk səfərini 2004-cü ilin fevral ayında həyata keçirmişdir.Xüsusi nümayəndə Bakıda olarkən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, Milli Məclisin sədri M.Ələsgərov, xarici işlər və müdafiə nazirləri ilə görüşmüşdür. Səfər zamanı Bakıda məskunlaşmış qaçqın və məcburi köçkünlər baş çəkmişdir.

Ümumiyyətlə, Azərbaycan Respublikasının Milli Məclisi ilə ATƏT-in Parlament Assambleyası arasında həyata keçirilən əməkdaşlıq və fəaliyyət olduqca əhəmiyyətlidir. Bu əməkdaşlıq getdikcə yeni mahiyyət kəsb edir və hər iki tərəfin maraqlarına uyğun şəkildə daha da dərinləşməkdədir.

ATƏT-in Parlament Assambleyasının 2004-cü il iyulun 5-9-da Edinburqda keçirilmiş 13-cü illik sessiyası yuxarıda sadalanan fikirləri bir növ tamamlayır. İlk öncə qeyd etmək lazımdır ki, Milli Məclisin ATƏT-in Parlament Assambleyasındakı nümayəndə heyəti ATƏT-in Parlament Assambleyasının bu sessiyasında qəbul edilmiş Edinburq Bəyannaməsinə Azərbaycan üçün olduqca zəruri olan bir sıra məsələlərin daxil edilməsinə nail oldu. Belə ki, beynəlxalq hüquq normalarına, BMT Nizamnaməsinin prinsiplərinə və insan hüquqlarının digər aspektlərinə münasibətdə ikili standartlara yol verilməməsi məsələsi (qətnamənin 1-ci bəndi) üzv dövlətləri beynəlxalq təşkilatların, o cümlədən BMT Təhlükəsizlik Şurasının qətnamələrini yerinə yetirməyə səsləyən çağırış (qətnamənin 7-ci bəndi) bəyannamədə göstərilirdi. Məhz Azərbaycan parlament nümayəndə heyəti çox böyük məharətlə BMT Nizamnaməsinin prinsiplərinə, beynəlxalq hüquq normalarına, BMT Təhlükəsizlik Şurası qətnamələrinə münasibətdə ikili standartlarla bağlı bir çox məsələləri mövcud olan sənədin mahiyyətinə və ATƏT-in daha çox diqqət ayırdığı məsələlərə uyğun olaraq ölkəmizin maraqlarına cavab verən şəkildə bəyannaməyə daxil etməyə müvəffəq olmuşdur.

Əməkdaşlığın gedişində Azərbaycan parlamenti qanunvericilik sahəsində ATƏT-in Parlament Məclisinin təcrübəsi ilə tanış oldu. Belə ki Azərbaycanda hazırlanan qanun layihələrini rəyləşdirmək üçün çoxtərəfli əsasda seminarların keçirilməsi və ikitərəfli əsasda Parlament Məclisinin üzvü olan dövlətlərlə əməkdaşlığın qurulması xüsusi əhəmiyyət kəsb edir. Məlumdur ki, ATƏT-in Minsk qrupu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizamlanması ilə məşğul olur. İllər ötməsinə baxmayaraq Ermənistanın qeyri-konstruktiv mövqeyi, bəzi hallarda isə ATƏT nümayəndələrinin ikili standartlara söykənməsi ucbatından münaqişənin nizamlanması prosesində irəliləyişə nail olunmur.

## *ƏDƏBIYYAT*

1. Abdallı H.Azərbaycan, Dünya birliyi və Qarabağ problemi. B., 2003.
2. Axundov N., Qasımov M. Azərbaycan və beynəlxalq parlament təşkilatları. B., 1996.
3. Azərbaycan parlamenti və beynəlxalq təşkilatlar. B., 2004.
4. Beynəlxalq təhlükəsizliyin arxitekturası. ABŞ-ın İnformasiya xidmətinin materialları əsasında // Dirçəliş-XXI əsr, № 8, 1999.
5. Bəyənirik Müdafiə Edirik // Azərbaycan qəz. № 4(1525) 8 yanvar 1997.
6. Həsənov Ə. Azərbaycan və ATƏT. B., 1997.
7. Həsənov Ə. Azərbaycanın ABŞ və Avropa dövlətləri ilə münasibətləri (1991-1996). B., 2001.
8. Həsənov Ə. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. B., 2005.
9. Qasımov M. Azərbaycan beynəlxalq münasibətlər sistemində (1991-1995-ci illər). B., 1996.
10. Qasımov M. Azərbaycanın xarici siyasəti (konsepsiya məsələləri). B., 1997.
11. Аббасбейли А. Гасанов А. Азербайджан в системе международных организаций. Б., 1999.

**КЯМАЛЯ ГАСАНОВА**

**ОТНОШЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ С ПАРЛАМЕНТСКОЙ АССАМБЛЕЕЙ ОБСЕ**

В статье описаны отношения Азербайджанской Республики с ОБСЕ, которые, в основном, строятся на политической основе. В 1992 году 20 января Азербайджан стал членом ОБСЕ, а 10 июня подписал его устав. Данная организация занимается решением проблемы Нагорного Карабаха и обеспечением мира в этом регионе. В статье рассмотрены участие Азербайджана в парламентской Ассамблее ОБСЕ, принятые решения на этих заседаниях.

**KAMALA HASANOVA**

**RELATIONS BETWEEN AZERBAIJAN REPUBLIC AND OSCE S PARLIAMENT ASSEMBLY**

Relations between Azerbaijan Republic and OSCE mainly realized in political direction.

İn January 20 in 1992 Azerbaijan Republic became member of OSCE and in july 10 signed her document. Organization solves the problem Nagorno Karabagh and activities for peace in region. In article shown activity Azerbaijan Republic in Parliament Assembly of OSCE and accepted desigion in these meetings.

***Rəyçilər: t.e.d.C.Həsənli, t.e.d.M.C.Qasımlı.***

***BDU-nun Avropa və Amerika ölkələrinin yeni və müasir tarixi kafedrasının 21 may 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №07).***